# Türkiyəm



Həmayil Əhmədqızı

Zaman-zaman çətinlikdən, sınaqdan
Əyilsən də, sınmamısan, Türkiyəm.
Hər zorluğun, hər bəlanın sonunda
Güclənmisən, bərkimisən, Türkiyəm.

Afət gəldi, hamımızı sarsıtdı,
Ürəyimizi hey yandırdı, qovurdu.
Bu yanğını kül olmağa qoymayaq,
Birlik olub tez söndürək, Türkiyəm.

Getməsəm də, görməsəm də, səni mən,
Ürəyimdə dünya qədər sevgim var.
Hər uğuruna, başarına sənin mən
Sevincimdən qanad açıb uçmuşam,
Gündə yüz yol qucağına, Türkiyəm.

Məramındır, məqsədindir, ədalət,
Bu yolundan sapınmadın, dönmədin.
Güclülərdən çəkinmədin heç zaman,
Haqq səsini ucaltmısan, Türkiyəm,
Məzlumlara qucaq açan Türkiyəm.

Türk xalqının iftixarı, vüqarı,
Qardaşlığın simvolusan, Türkiyəm.
Çətin gündə, ağır gündə hər zaman,
Arxamızda dağ olmusan, Türkiyəm.

Sən çəkdiyin bu ağrılar, acılar
İkimizin ağrısıdır, Türkiyəm.
İki əli birləşdirib bir olduq,
Bu sınaqdan tez çıxarıq, Türkiyəm.

Mən onları axı necə sevməyim?
Dünya qədər ürəyimdəki sevgim,
Dilimədir, anamadır, vətənə.
Bu sevgini deyin, necə paylayım,
Üçünə də payım bərabər olsun?
Anam məni bu dünyaya gətirdi,
Vətən məni qucağında bəslədi.
Dilim məni millət kimi tanıtdı
Mən onları axı necə sevməyim?

Vətən mənim varlığımdır, canımdır,
Dilim mənim ruhumun laylasıdır.
Anam mənim ürəyimin tacıdır,
Mən onları deyin, necə sevməyim?

Anamızın varlığından doğuldu
Ana vətən, ana dilim yarandı.
Vətənimə, ana dilimə xəyanət
Ürəyimə xəncər kimi saplandı.

Kim sevmirsə doğma ana dilini,
Özü bilər, sevən günü olmasın.
Ona "doğma" yad dilində danışsın,
Dilimizin qol-qanadın sındırıb
Ahəngini, qaydasını pozmasın.

Vətənimi düşmənlərdən qoruyan
Saya gəlməz mərd igidlərim var.
Dilimizi biz hamımız bir olub,
Sözdə doğma, yad ruhlardan qoruyaq,
Sapı bizdən olanlardan qoruyaq.

Rəbbim bilsin, yetər bizə, ürəyim
Dünyamızın çəkilməyən dərdini,
Ovuc boyda ürəyimə yüklədim.
O çəkdikcə mən üst-üstə qaladım,
Yarı yolda yorğun qaldıq, ürəyim.

Olanlara hamı baxdı, görmədi,
Təkcə bizmi görən olduq, ürəyim?
Ağrılarla, acılarla yükləndi,
Dərd-şələmiz ağır oldu ürəyim.

Hər dərdliyə həmdəm olduq ikimiz,
Yaralıya məlhəm olduq ikimiz,
Çarəsizə çarə tapdıq ikimiz,
Özümüzü unutmuşduq, ürəyim.

Ömrümüzün ahıl, qürub çağında,
Haqq-hesaba çəkmə məni, ürəyim.
Qədir-qiymət bilməyəni görəndə
Geri dönüb heyifsilənmə, ürəyim.

Od vurdular, mən alışıb yanmadım,
Necə oldu, sən içimdə alışdın?
Bacarmadım, mən söndürə bilmədim,
Korun-korun yanıb-bitən ürəyim.

Bir-birimizi gəl günahkar sanmayaq,
Nə sən məni, nə mən səni, ürəyim.
Nələr etdik, bilmədilər, bilməsin.
Rəbbim bilsin, yetər bizə, ürəyim.

Bunun sonu nə olacaq, bilən yox
Ömrümüzə düşən sevinc, kədəri
Tale bizə ədalətsiz bölübdü.
Axı niyə ömrümüzə həmişə
Sevinci az, kədəri çox bölübdü?

Yaşayırıq sevinc, kədər içində,
Həmdəmimiz gah sevincdir, gah kədər.
Ömrümüzə sevinc gəlir, tez gedir,
Dərd ürəkdə yuva qurur, getməyir.

Sevinc, kədər ürəyimin qonağı,
Hər ikisi ömrümüzdə yaşayır.
Üstümüzə kədər hücum çəkəndə
Sevinc bizi tərk eyləyib tez gedir.

Bu dünyada sevinc azdır, kədər çox,
Bu dünyada doğru azdır, yalan çox,
Bu dünyada sevgi azdır, nifrət çox,
Az azalır, çox çoxalır günbəgün,
Bunun sonu nə olacaq bilən yox.